**Lalə Məhəmməd qızı CABBAROVA**
Psixologiya üzrə fəlsəfə doktoru, dosent, Bakı Dövlət Universiteti Sosial və pedaqoji psixologiya kafedrasının müəllimi
E-mail: hmdliaydan@gmail.com

**Aydan İlham qızı ƏHMƏDLİ**
Klinik psixologiya, II kurs magistrant ,
Xəzər universiteti, Psixologiya departamenti

# UŞAQLARIN ERKƏN İNKİŞAFINDA BAĞLANMANIN ROLU

**Xülasə**

Bağlanma, uşaqların inkişafında əhəmiyyətli rola malik bir anlayışdır və bu yalnız uşaqlığın erkən dövründə deyil, həyat boyu təsirini göstərir. Bağlanmanın uşaqların fiziki və psixoloji inkişafına təsiri olduqca önəmlidir. Eyni zamanda erkən inkişaf dövründə formalaşan bağlanma tərzləri, onların gələcək inkişafında, xüsusən də emosional vəziyyətləri, sosial əlaqələri və davranışlarında mühüm rol oynayır. [1, s. 23-45]. Bağlanma nəzəriyyəsi 50 ildən çoxdur ki, davranış elmlərində ən təsirli yanaşmalardan biri olaraq inkişaf edib. Bu nəzəriyyə, uşaqlardan böyüklərə qədər hər yaş qrupunun emosional və sosial sağlamlığını formalaşdıran vacib bir nəzəriyyədir. [9]. Bağlanma əlaqələrinin dərinliyi, uşaqların gələcəkdəki sosial və emosional vəziyyətlərini müəyyən edir. Bağlanma tərzləri, uşağın ailəsi ilə olan əlaqələrinə və həmin ailənin davranışlarına bağlı olaraq formalaşır, və bu bağlanma tərzləri uşaqların davranışlarına, xüsusilə stressli vəziyyətlərdə necə reaksiya verdiklərinə təsir edir [2, s.112-130]. Bəzi uşaqların bağlanma tərzləri vaxt keçdikcə dəyişə bilər, bu da onların sosial və emosional inkişafına təsir göstərə bilər [3, s. 67-89]. Bağlanma, həmçinin valideynlər və uşaqlar arasındakı əlaqələrin dinamikasını, bu əlaqələrin gücləndirilməsini və valideynlərin müdaxilə etmə üsullarını da əhatə edir. Bu məqalədə bağlanmanın uşaqların erkən inkişafı və onların gələcək həyatlarında uğurlu sosial və emosional nəticələr əldə etməsində necə bir rol oynadığı haqqında danışılır. Eyni zamanda bağlanma tərzləri xüsusilə güvənli, qaçınqan,və qayğılı bağlanmaların uşaqların sosial və emosional inkişafı ilə əlaqəsi müzakirə edilir. Həmçinin, bağlanmanın uşaqların gələcək münasibətlərində və həyat keyfiyyətlərindəki əhəmiyyəti göstərilir.

**Açar sözlər:** bağlanma, inkişaf dövrləri, bağlanma tərzləri, psixoloji inkişaf, sosial inkişaf, bağlanma nəzəriyyəsi

**UOT:** 159.9
**DOİ:** https://doi.org/ 10.54414/SGIE4617

**Giriş**

Bağlanma, insanlar arasında davamlı psixoloji bağlılıq ifadəsini izah etmək üçün istifadə olunan bir anlayışdır [7]. Xüsusilə, bağlanma nəzəriyyəsi, bir uşağın valideynləri və ya ona qayğı göstərən şəxslə olan emosional bağının vacibliyini vurğulayır. John Bowlby, məşhur bir ingilis psixoloqu və psixoanalitiki olaraq, erkən uşaqlıq inkişafına aid baxış bucağımızı köklü şəkildə dəyişdirən əhəmiyyətli bir nəzəriyyə olan bağlanma nəzəriyyəsinin banisidir. Bu nəzəriyyə, uşağın emosional və sosial inkişafının ilkin bağlanma fiqurları ilə olan əlaqə vasitəsilə formalaşdığını irəli sürür. Erkən bağlanma, uşaqların psixoloji inkişafında və gələcəkdəki sosial əlaqələrində əhəmiyyətli bir amil olaraq çıxış edir. [8, s.198-217] Bowlby'nin nəzəriyyəsi, uşaqların bioloji olaraq bağlanma yaratmağa proqramlaşdırıldığını və bunun sağ qalma strategiyası kimi xidmət edən bir mexanizm olduğunu qəbul edir. Dünya Sağlamlıq Təşkilatı 1950-ci ildə Bowlby'ni, Londonda yaşayan evsiz uşaqların psixi sağlamlığı ilə bağlı bir təqdimat etmək üçün dəvət etdi. Bu dəvət, Bowlby'nin bağlanma nəzəriyyəsini inkişaf etdirməsində bir başlanğıc

nöqtəsi oldu. Bowlby, oğlan uşaqlarının analarından erkən yaşda ayrılmalarının, gənclik və yetkinlik dövründə cinayətkarlıq səviyyəsini artırdığını göstərən tədqiqatını təqdim etdikdən sonra valideyn-uşaq ünsiyyəti vacib bir mövzuya çevrildi. 1944-cü ildə Bowlby'nin "Qırx dörd oğlan oğru: şəxsiyyətləri və həyatları" başlıqlı məqaləsi dərc edildi. Bu tədqiqat həyatın ilk üç ilində anadan uzaq qalmağın uşaqları artan dərəcədə fiziki və ruhi xəstəlik riski altına qoyduğunu göstərdi. [3, s. 67-89]. Lakin bu tədqiqatın bir çatışmayan cəhəti erkən inkişaf dövründə anadan uzaq qalmanın mənfi təsirlərə niyə səbəb olduğunu açıqlamaması idi [3, s. 67-89], [4, s. 12-34]. Bowlby, ənənvi psixoanaliz üzrə təhsil almışdı. O, uşaq psixiatriyası sahəsində çalışmağa başladığı andan etibarən psixoanalitik nəzəriyyənin çatışmazlıqlarını gördü. Uşaqların baxım verənlər tərəfindən qayğı görmələrinə baxmayaraq narahat və gərgin olmaları, Bowlby'nin psixoanalitik nəzəriyyəni sorğulamağa başlamasına səbəb oldu. Məsələn, psixoanalitik nəzəriyyəyə görə uşaqlar analarını, onun vasitəsilə qidalanma tələbatını ödəyə bildikləri üçün sevirlər fikrini o burada izah edə bilmirdi [1, s. 56-78] . Beləliklə bu fərqindəlik Bowlby-ni yeni bir axtarışa aparan dönüm nöqtəsi oldu.

**Əsas hissə**

Bowlby apardığı tədqiqatlara əsasən insanın yaxın əlaqələr qurma meylinin uşaq yaşlarından başladığını ortaya qoydu. İlk dəfə Bowlby 1958-ci ildə "bağlanma" anlayışını istifadə etmişdir. Həyatın ilk illərində yaranan bu bağ müvəqqəti deyildir, çünki bu bağ uşağın gələcək emosional sağlamlığını və münasibətlərini formalaşdırmaqda əhəmiyyətli rol oynayır. Bowlby'nin bağlanma nəzəriyyəsi, ilkin bağlanma fiquru ilə güvənli və davamlı bağın əhəmiyyətini vurğulayır. Bowlby, bu bağın düzgün inkişaf etməməsinin gələcəkdə bir sıra psixi sağlamlıq və davranış problemlərinə yol açacağını düşünürdü. Bu yanaşma, o dövrdə psixi sağlamlıq problemlərini əsasən genetik faktorlarla izah edən əsas nəzəriyyələrdən mühüm bir fərq göstərirdi. Bowlby'nin həmkarı Ainsworth'un tədqiqatı, Bowlby'nin nəzəriyyəsini təsdiqlədi və qayğı göstərənlərlə qarşılıqlı əlaqənin keyfiyyətindən asılı olaraq formalaşan fərqli bağlanma tərzlərini (güvənli, qaçınqan və qayğılı) izah etdi. Bowlby və Ainsworth'un təsvir etdiyi kimi, güvənli bağlanma, uşağın qayğı göstərənlərinin mövcudluğuna və həssaslığına olan etibarla xarakterizə edilir. Erkən yaşlarda valideynlə qurulan bağlar, uşaqların emosional və sosial inkişafında təməl rol oynayır, çünki bu bağlar onların özünə inamını və digər insanlarla münasibətlərini formalaşdırır. [5, s. 56-78] . Bowlby bağlanmanın aşağıdakı mərhələlərini müəyyən etmişdir:

İlkin Bağlanma Dövrü (0-2 Ay) – Bu dövrdə uşaqlar xüsusi olaraq müəyyən bir şəxsə qarşı bağlanma davranışı göstərmirlər. Lakin onlarda insan səsi və üzünə qarşı maraq yaranır, valideynlərinə müəyyən reaksiya göstərirlər. Bu reaksiyalar hələ müəyyən bir insana yönəlmiş deyil. Uşaq müxtəlif şəxslərə gülümsəmə, ağlama və ya mırıldanma kimi davranışlarla ətrafdakılarla əlaqə qurur.

Bağlanmanın İnkişafı Dövrü (2-6 Ay) – Təxminən 2 aylıq ikən uşaq artıq bəzi şəxslərə daha çox reaksiya verməyə başlayır. Ana və ya ona qayğı göstərən şəxs ilə qurduğu əlaqə digər insanlarla qurduğu əlaqədən fərqlənməyə başlayır. Bu dövrdə uşaq müəyyən şəxslərə gülümsəyir, onlarla daha uzun müddət göz təması qurur və ya sakitləşmək istədikdə həmin şəxsləri axtarmağa başlayır. Bağlanma yavaş-yavaş formalaşır, amma hələ tam olaraq inkişaf etməmişdir.

Seçici Bağlanma Dövrü (6 Ay – 2 Yaş) – Bu dövr, Bowlby'nin nəzəriyyəsinə görə, bağlanma mərhələsinin ən vacib dövrü olaraq qəbul edilir. Uşaq xüsusilə 6-8 aylıq ikən "ayrılıq qayğısı" hiss etməyə başlayır. Bu, uşağın müəyyən bir və ya bir neçə şəxsə qarşı digərlərindən daha çox bağlandığını göstərir. Uşaq ona qayğı göstərən şəxs uzaqlaşdıqda üsyankar davranışlar sərgiləyir, geri qayıtdıqda isə sevinc və rahatlıq göstərir. Bu mərhələdə yaranan bağlanma uşağın psixoloji inkişafı üçün çox əhəmiyyətlidir.

Qarşılıqlı Münasibət Dövrü (2 Yaş və Üzəri) – 2 yaşından sonra uşaq, zehni inkişafı ilə əlaqədar olaraq, qayğı göstərən şəxs ilə daha yaxşı qarşılıqlı münasibət qurmağa başlayır. Uşaq artıq ayrılığın keçici olduğunu anlayır. Nitq qabiliyyətinin inkişafı ilə duyğularını və istəklərini daha açıq ifadə etməyə başlayır. Bu mərhələlər bütün uşaqlarda eyni sürət və sırayla inkişaf etmir.

Yeniyetməlik dövrü başladıqda uşaqların diqqəti artıq valideynlərindən daha çox həm-

yaşıdlarına yönəlir. Bu dəyişiklik uşaqlıq dövründə edilən bağlanma davranışlarında fərqliliklərə səbəb olur. Uşaqlıqda müşahidə etdiyimiz fiziki yaxınlıq ehtiyacı, artıq bağlanma fiquru ilə duyğuların və qorxuların paylaşılması ilə əvəz olunur.

Ainworth isə "yad vəziyyət" eksperimentilə 12-18 aylıq 100 uşağın anaları tərəfindən tək buraxılaraq yalnız qalmağın yaratdığı stresə necə reaksiya verəcəkləri və bu streslə necə mübarizə aparacaqlarını araşdırmışdır. Aparılan tədqiqatlar nəticəsində üç əsas bağlanma tərzi müəyyən olunub: güvənli, qaçınqan və qayğılı bağlanma.

Güvənli Bağlanma – Yad vəziyyət eksperimentində güvənli bağlanan uşaqlar anaları yanlarında olduqda ətrafı kəşf etməyə can atırlar. Eksperiment əsnasında ana iki dəfə otaqdan çıxır. Güvənli bağlanan uşaqlar, ana otaqdan çıxanda bəzən ağlaya bilərlər. Lakin ana geri qayıtdıqda, uşaqlar ona yaxınlaşır və qısa müddətdə sakitləşirlər. Bəzi uşaqlar analarının geri dönəcəyini bildikləri üçün ana otaqdan çıxanda narahat olmurlar və oyuncaqları ilə oynamağa davam edirlər. Ana geri qayıtdıqda və uşaq sakitləşdikdən sonra o, ətrafı kəşf etməyə və oyun oynamağa davam edir. Eksperimentdə iştirak edən uşaqların təxminən 70%-i güvənli bağlanma göstərir. Gerçək həyatda isə, güvənli bağlanan uşaqların valideynləri onlara daha çox diqqət ayırırlar. Bu uşaqlar valideynləri yanlarından ayrıldıqda daha az narahat olurlar, çünki onların valideynlərinin hər zaman əlçatan olduğunu anlayırlar. Yetkinlik dövründə də güvənli bağlanan uşaqlar romantik münasibətlərdə, adətən, güvənli bağlanma inkişaf etdirirlər.

Qaçınqan Bağlanma – Eksperimentdə qaçınqan bağlanan uşaqlar, ana otağa gəldikdə onunla əlaqə qurmaqdan qaçırlar. Bəzi uşaqlar isə analarını tamamilə görməzdən gəlirlər. Qaçınqan bağlanan uşaqlar ana otaqda olduqda da onunla əlaqə qurmurlar, ana otaqdan çıxanda isə narahat olmurlar və öz oyunlarına davam edirlər. Narahatlıq yaşayan bəzi uşaqlar yad bir qadın tərəfindən asanlıqla sakitləşdirilirlər. Eksperimentdə iştirak edən uşaqların 15%-i qaçınqan bağlanmaya sahibdir. Qaçınqan bağlanan uşaqların anaları uşaqlarına qarşı ümumiyyətlə çox diqqətli olmurlar. Bu səbəbdən, uşaqlar bu diqqətsizliyə qarşı ananı görməzdən gəlirlər. Yəni, uşaq ana ilə əlaqə qurma ehtiyaclarını qarşılamadığı üçün ana ilə əlaqəni kəsir. Qaçınqan bağlanan uşaqların stresli olduqları zaman valideynlərindən dəstək almadıqları müşahidə edilir. Məsələn, valideynlər uşaq ağladıqda onu sakitləşdirməyə çalışmazlar və ya uşağı tək buraxa bilərlər. Bu cür davranışlarla qarşılaşan uşaqlar adətən qaçınqan bağlanmaya sahib olurlar.

Qayğılı Bağlanma – Qayğılı bağlanma tərzinə sahib uşaqlar, eksperiment zamanı ana otağa daxil olduqda həm ananı istəyir, həm də ona müxtəlif reaksiya göstərirlər. Məsələn, uşaq ananın qucağına getmək istəyir, amma qucaqda olanda ağlamağa davam edir və ya aşağı düşmək üçün çaba göstərir. Belə uşaqların həm anaya ehtiyacı var, həm də ona qarşı narazılıq hissi duyurlar. Qəribə vəziyyət eksperimentində iştirak edən uşaqların təxminən 15%-i qayğılı bağlanma nümayiş etdirirlər. Bu uşaqların anaları uşaqlarının ehtiyaclarına uyğun olaraq hərəkət etmirlər və bu da onların emosional vəziyyətinə təsir edir. Qayğılı bağlanan uşaqlar ətraflarını kəşf etmək yerinə daha çox analarının harada olduğunu soruşurlar. Onlar daima yalnız qalmaq qorxusu hiss edirlər. Bu səbəbdən, ana onlardan ayrıldıqda uşaqlar həm qəzəb, həm də qayğı hissi yaşayırlar. Uşaqlar analarını tək buraxdıqları üçün hirslənərkən, bir yandan da onları gördükləri zaman rahatlayıb sevinc hissi yaşayırlar. Bu vəziyyət, uşağın ehtiyaclarının qarşılanmasında müşahidə olunan tutarsızlıqdan qaynaqlanır.

**Yekun nəticə**

Nəticə etibarilə, erkən uşaqlıq dövründə bağlanma uşağın inkişafına, sosial və emosional rifahının formalaşmasına mühüm təsir göstərir. Erkən bağlanma, uşaqların qarşılaşdıqları stressə qarşı reaksiyalarını və güvənli əlaqələr qurma bacarıqlarını inkişaf etdirərək, onların ümumi psixoloji sağlamlığını möhkəmləndirir. [6, s. 45-67] Tərbiyəçilər və valideynlərlə etibarlı münasibət uşaqlara araşdırmalar aparmaq, öyrənmək və böyümək üçün lazım olan inamı və təhlükəsiz mühiti yaradır. Əksinə, etibarsız bağlanma emosional tənzimləmə problemlərinə səbəb ola bilər, bu da qayğı göstərənlər və valideynlərin sağlam inkişafı dəstəkləməkdəki vacib rolunu bir daha önə çıxarır. Uşaqlıq dövründəki zorakılıq və ailə daxilindəki disfunksiya, böyüdükdə bir çox ölümcül xəstəliyin və psixoloji problemlərin yaranmasında əhəmiyyətli bir risk faktoru olaraq çıxış edir. [10, s. 245-258 ]. Erkən bağlanma,

uşaqların qarşılaşdıqları stresli vəziyyətlərə və gələcəkdəki həyat hadisələrinə uyğunlaşma qabiliyyətlərinə təsir edir. [11, s.348–365 ]. Beləliklə bağlanma nəzəriyyəsi, uşaqların erkən inkişafında mühüm bir rol oynayır və bu nəzəriyyə, Bowlby'nin əsərlərində geniş şəkildə təsvir edilmişdir. Bowlby, bağlanma prosesinin uşaqların fiziki və psixoloji inkişafına, onların sosial münasibətlərinə və gələcək emosional vəziyyətlərinə olan təsirini vurğulamışdır. Uşaqların ilk dövrlərdə güvənli bağlanmaya sahib olması, onların özlərinə inamını artırır və gələcəkdə sağlam əlaqələr qurmalarına şərait yaradır. Uşaqların valideynləri ilə qarşılıqlı əlaqələrindən öyrəndikləri davranış modelləri, onların inkişafını istiqamətləndirir və həyatda qarşılaşacaqları stresli vəziyyətlərə necə reaksiya verəcəklərini müəyyən edir. Eyni zamanda, bağlanmanın keyfiyyəti, uşaqların gələcək psixoloji rifahını formalaşdırır və onların həyatın müxtəlif sahələrində müsbət inkişaf etmələrini təmin edir [1, s. 23-45] . Bu baxımdan, Bowlby'nin bağlanma nəzəriyyəsi, uşaqların erkən dövrlərdə güvənli və davamlı əlaqələr qurmaları üçün müvafiq sosial dəstək və müdaxilələrin əhəmiyyətini ön plana çıxarır.

## ƏDƏBİYYAT SİYAHISI:

1.Bowlby, J. (1969). Attachment and Loss: Volume I: Attachment. (23-45)

2.Ainsworth, M. D. S. (1978). The Bowlby-Ainsworth attachment theory (112-130)

3.Bowlby, J. (1988). A Secure Base: Parent-Child Attachment and Healthy Human Development. (67-89)

4.Hazan, C., & Shaver, P. R. (1994). Attachment as an Organizational Framework for Research on Close Relationships (12-34)

5.Coates, J. (2004). Theories of Attachment: An Introduction to Bowlby, Ainsworth, and Attachment Theory. (56-78)

6.Shaver, P. R., & Mikulincer, M. (2002). Attachment Theory and Research: Overview with Suggested Applications to Clinical Science (45-67)

7.Bowlby, J. (1997). Attachment (2nd ed.)

8. George, C., & Solomon, J. (1999). Attachment and caregiving in the infant-caregiver relationship. In J. Cassidy & P. R. Shaver (Eds.), Handbook of attachment: Theory, research, and clinical applications (pp. 198–217). Guilford Press.

9.Cassidy, J., & Shaver, P. R. (Eds.). Handbook of Attachment: Theory, Research, and Clinical Applications (2016).

10.Felitti, V. J., Anda, R. F., Nordenberg, D., Williamson, D. F., Spitz, A. M., Edwards, V., Koss, M. P., & Marks, J. S. (1998). Relationship of childhood abuse and household dysfunction to many of the leading causes of death in adults. American Journal of Preventive Medicine, 14(4), 245-258.

**Lala Mahammad CABBAROVA**

PhD in Psychology, Associate Professor, Faculty Member of the Department of Social and Educational Psychology, Baku State University.

E-mail: hmdliaydan@gmail.com

**Aydan İlham AHMƏDLİ**

Khazar University, Department of Psychology

Clinical psychology, Master II

## THE ROLE OF ATTACHMENT İN EARLY CHİLDHOOD DEVELOPMENT

### Summary

Attachment plays a significant role in children's development and impacts not only in early childhood but throughout their lives. The influence of attachment on children's physical and psychological development is extremely important. Likewise, attachment styles formed during early development play a key role in their future development, particularly in their emotional states, social relationships, and

behaviors (Bowlby, 1969). Attachment theory has developed over the past 50 years as one of the most influential approaches in behavioral sciences. The depth of attachment determines children's future social and emotional states. Attachment styles are shaped by the child's relationship with their family and the family's behavior, and these attachment styles influence how children behave, especially how they respond in stressful situations (Ainsworth, 1978). Some children's attachment styles may change over time, which can impact their social and emotional development (Bowlby, 1988). Attachment also encompasses the dynamics between parents and children, the strengthening of these relationships, and the methods of intervention by parents. This article discusses the role of attachment in early childhood development and how it plays a part in achieving successful social and emotional outcomes in children's future lives. It also discusses the relationship between attachment styles, particularly secure, avoidant, and ambivalent attachment, and children's social and emotional development. Furthermore, the importance of attachment in children's future relationships and quality of life is highlighted.

**Keywords**: attachment, development stages, attachment styles, psychological development, social development, attachment theory.

**Айдан Ильхам АХМАДЛИ**
Хазарский университет, кафедра психологии
Клиническая психология, магистрант 2 курса

**Лала Мухаммед ДЖАББАРОВА**
Доктор философии по психологии, доцент, преподаватель кафедры социальной и педагогической психологии Бакинского государственного университета.
E-mail: hmdliaydan@gmail.com

## РОЛЬ ПРИВЯЗАННОСТИ В РАННЕМ РАЗВИТИИ ДЕТЕЙ.

**Резюме**

Привязанность играет важную роль в развитии детей, оказывая влияние не только в раннем детстве, но и на протяжении всей жизни. Влияние привязанности на физическое и психологическое развитие детей чрезвычайно важно. Также стили привязанности, формирующиеся в период раннего развития, играют значительную роль в дальнейшем развитии детей, особенно в их эмоциональном состоянии, социальных отношениях и поведении (Bowlby, 1969). Теория привязанности более 50 лет является одной из самых влиятельных концепций в поведенческих науках. Глубина привязанности определяет социальное и эмоциональное состояние детей в будущем. Стили привязанности формируются в зависимости от отношений ребенка с семьей и поведения этой семьи, и эти стили привязанности влияют на поведение детей, особенно на то, как они реагируют в стрессовых ситуациях (Ainsworth, 1978). Некоторые стили привязанности могут изменяться с течением времени, что может повлиять на социальное и эмоциональное развитие детей (Bowlby, 1988). Привязанность также включает динамику отношений между родителями и детьми, укрепление этих отношений и способы вмешательства родителей. В статье рассматривается, какую роль привязанность играет в раннем развитии детей и в достижении ими успешных социальных и эмоциональных результатов в будущем. Также обсуждается связь между стилями привязанности, особенно безопасной, избегающе-амбивалентной и тревожной привязанностью, и социальным, эмоциональным развитием детей. Кроме того, подчеркивается значение привязанности для будущих отношений и качества жизни детей.

**Ключевые слова**: привязанность, стадии развития, стили привязанности, психологическое развитие, социальное развитие, теория привязанности.